Xalqımızın zəngin bədii-tarixi irsi respublikamızın muzeylərində hifz edilərək gələcək nəsillərə ötürülür.

Bu inciləri yaratmaq kimi onları qoruyub-saxlamaq, nəsildən-nəslə ərmağan etmək də çətindir.

Bu kolleksiyaların nümunələrinin qorunması və bərpası ümdə məsələlərdən biridir.

Azərbaycanda muzey sərvətlərinin elmi bərpası ötən əsrə – 1950-ci ilə təsadüf edir. Azərbaycanın ilk bərpaçı-rəssamı mərhum F.Hacıyev tərəfindən bərpa elminin təməli qoyulmuşdur.

Bu günə qədər Qafqazda yeganə olan və fəaliyyət göstərən Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi (MSXƏEBM) 1981-ci ildə Mədəniyyət Nazirliyinin nəzdində yaradılmışdır.

MSXƏEBM-nin vəzifələrinə Respublikamızda mövcud olan muzey kolleksiyalarının elmi bərpası və konservasiyası, sərvətlərin vəziyyətinə ardıcıl qulluq və nəzarət daxildir.

Mərkəzdə Rusiyanın qabaqcıl emalatxanalarında təhsil almış və böyük əməli təcrübəsi olan yüksək dərəcəli peşəkar mütəxəssislər çalışır.

Onlardan biri də yağlı boya şöbəsinin müdiri Natiq Səfərovdur. 27 ildən artıq iş təcrübəsi var. Ali dərəcəli bərpaçı-rəssamdır. Öz peşəkar fəaliyyətinə demək olar ki, gənc yaşlarından başlayıb. 1975-1980-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsil alıb. 1980-ci il sentyabr ayının 23-dən R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin nəzdində F.Hacıyevin rəhbərlik etdiyi mərkəzdə bərpaçılıq emalatxanasında bərpaçı-rəssam kimi fəaliyyətə başlamışdır.



# Nadir sənətin insanları

*Dünyanın ən tanınmış mədəniyyət mərkəzlərindən biri də bizim doğma vətənimiz Azərbaycandır. Azərbaycan torpağı tarixin hər bir dövründə dünya mədəniyyəti xəzinəsinə görkəmli şəxsiyyətlər bəxş etmişdir.*

Həmin ildən Moskva şəhərində Ümumittifaq Elmi Bərpaçılıq İnstitutunun nəzdində 1980-1984-cü illərdə təşkil olunmuş bərpaçılıq kurslarını bitirmişdir. Burada o, məşhur bərpaçılar S.Yamşikov, S.Zaytsev və A.Qaluşkinin tələbəsi olmuş, 3-cü bərpaçı-rəssam dərəcəsini almışdır.

1984-cü ildə Moskvada Birinci Ümumittifaq Bərpaçılar Sərgisinin iştirakçısı, 1986-cı ildə Azərbaycan Respublikasının Rəssamlar İttifaqının üzvü, 1989-cu ildə SSRİ bərpaçılar qurultayının nümayəndəsi və SSRİ bərpaçılar assosiasiyasının üzvü seçilmişdir.

Həmin ildə Baxçasaray şəhərində bərpaçılar simpoziumunun iştirakçısı və orada keçirilən yeganə sərginin təşkilatçısı olmuşdur.

Bu illər ərzində bir çox mətbuat orqanlarında "Pravda", "Moskovski Komsomolets" "Vışka", "Bakinskiy Raboçiy", "Kommunist", "Mədəniyyət və İncəsənət" qəzetlərində çap edilmişdir.

Ümumittifaq televiziyasının proqramında "Vremya", "Oçevidnoe i neveroyatnoe" verilişində onun fəaliyyəti geniş işıqlandırılmışdır.

Natiq Səfərov bir rəssam kimi də müxtəlif ölkədaxili sərgilərdə və xaricdə iştirak etmişdir. Yaradıcılıq əsərlərindən biri olan "Düşüncə" Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin kolleksiyasında saxlanılır.

Yağlı boya incəsənət əsərlərinin bərpası digər növ incəsənət əsərlərinin bərpasından mürəkkəbliyinə görə fərqlənir. Çətinliklərə baxmayaraq Natiq Səfərov qarşısına qoyduğu məqsədə doğru inamla irəliləyir, seçdiyi çətin və maraqlı peşəsinə daha dərindən yiyələnir. O

ömrünü unikal sənət nümunələrini yenidən dirçəltmək, ona yeni nəfəs vermək kimi çox lazımlı və mühüm bir işə sərf edən istedadlı bərpaçı-rəssamdır.

Mindən çox yağlı boya ilə işlənmiş əsərlər bərpa edib və bu bərpa proseslərində mütərəqqi üsullardan istifadə edərək dünyanın çox az bərpa mərkəzlərində həyata keçirilən bərpa proseslərini müvəffəqiyyətlə həyata keçirmişdir.

1990-cı ildə yüksək dərəcəli barpaçı-rəssam kateqoriyasına layiq görülərək MS-XƏEBM-nin yağlı boya şöbəsinə rəhbərlik edir.

Qərbi Avropa rəssamlarının əsərləri ilə yanaşı Azərbaycanın tanınmış rəssamlarının əsərlərini də bərpa edib. Onların yaradıcılığı ilə yaxından tanış olub. Bunlardan F.Hals, H.Kronn, Savrasov, Şişkin, S.Bəhlulzadə, T.Salahov, T.Nərimanbəyov, E.Məmmədov və başqalarını göstərmək olar.

1992-ci ildən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzdində olan muzeylərin bir çox komissiyalarının üzvü və Dövlət Ekspert Komissiyasının üzvü kimi fəaliyyəti də yüksək qiymətə layiqdir.

**Elmira SƏFƏROVA,**
**bərpaçı-rəssam**